**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

12 noyabr 2021-ci il
№43 (8951)

www.muallim.edu.az
muallim@edu.gov.az



## 12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günüdür

**Heydər ƏLİYEV, ümummilli lider**

**İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik**

İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və çox şərəfli vəzifədir. Bu bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik.

Hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

**BU SAYIMIZDA**

### Zəfər Gününə həsr edilmiş TOPs Festivalı



Noyabrın 5-də "TOPs proqramı — fiziki tərbiyə üzrə müasir təhsil texnologiyasının yaradılması" layihəsi çərçivəsində 8 noyabr - Zəfər Günü münasibətilə təşkil edilmiş estafet tipli idman oyunlarından ibarət yarışlara yekun vurulub. TOPs festivalı formatında təşkil olunmuş final yarışlarında IV və VI siniflər üzrə 72 şagird çempionluq titulu qazanmaq üçün bir araya gəlib. Bu yarışlarda ümumilikdə 24 sinifdən 300 nəfərə yaxın şagird iştirak edib.

⇨ səh.2

### Paytaxt məktəblilərinin ZƏFƏR sevinci



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində 8 noyabr-Zəfər Günü ilə bağlı tədbirlər təşkil olunub. Təhsil Nazirliyinin əmri ilə təsdiqlənmiş "27 sentyabr Anım Günü və 8 noyabr Zəfər Günü ilə bağlı Tədbirlər Planı"na və BŞTİ-nin müvafiq əmrinə əsasən ümumi təhsil müəssisələrində Zəfər Gününə həsr edilmiş konfranslar, seminarlar, mühazirələr, "dəyirmi masa"lar, "açıq dərs"lər, vebinarlar, ədəbi-bədii kompozisiyalar, foto və rəsm sərgiləri təşkil olunub.

⇨ səh.4

### "BİZ qalib ölkənin vətəndaşlarıyıq"



Azərbaycan hər zaman istedadlı gəncləri ilə fəxr edib. Onların dünyanın müxtəlif ölkələrində əldə etdiyi uğurlar hər zaman bizləri sevindirib, qürur yaşadıb. Hər dəfə istedadlı gənclərimizin müxtəlif ölkələrdən gələn uğur sorağını aldıqca onların istedad və qabiliyyətlərinin imkanlarının hüdudsuz olması qənaətinə gəlirsən. Onlardan biri də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın məzunu Nərmin Nəcəflidir.

⇨ səh.3

### "Muzeylərimizi tanıyaq və tanıtdıraq"



Noyabrın 6-da Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Muzeylərimizi tanıyaq və tanıtdıraq" adlı interaktiv ekskursiya layihəsinə start verilib. Ekskursiyalarda rayon və kəndlərdən olan şəhid və qazi övladları, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, az təminatlı ailələrin övladları, internatdan olan məktəblilər iştirak edir.

⇨ səh.6



## Prezident İlham ƏLİYEV

# Biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik

**Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər**

Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

Tərbiyə işlərinə çox böyük fikir verərək gəncləri vətənpərvərlik ruhunda tərbiyə etdik. İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

# "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. Peşə təhsili müəssisələrində:

akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 — 100 bal) olan tələbələrə — 75 manat

akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 — 100 bal) olan tələbələrə — 60 manat

akademik göstəriciləri "3" — "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 — 100 bal) olan tələbələrə — 50 manat.";

1.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə, peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə isə aralıq qiymətləndirmə nəticələrinə görə bu Sərəncamın 1.2—1.4-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.";

1.3. 3-cü hissədə "və 1.4-cü bəndləri" sözləri "bəndi" sözü ilə əvəz edilsin və həmin hissədən "və peşə təhsili müəssisələrinin tələbələrinə" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 noyabr 2021-ci il*






**Noyabrın 5-də "TOPs proqramı — fiziki tərbiyə üzrə müasir təhsil texnologiyasının yaradılması" layihəsi çərçivəsində 8 noyabr - Zəfər Günü münasibətilə təşkil edilmiş estafet tipli idman oyunlarından ibarət yarışlara yekun vurulub.**

# Zəfər Gününə həsr edilmiş TOPs Festivalı

## 72 şagird çempionluq titulu qazanmaq üçün bir arada

TOPs festivalı formatında təşkil olunmuş final yarışlarında IV və VI siniflər üzrə 72 şagird çempionluq titulu qazanmaq üçün bir araya gəlib. Bu yarışlarda ümumilikdə 24 sinifdən 300 nəfərə yaxın şagird iştirak edib.

Festival öz işinə "Zəfər Günü" mövzusunda təşkil edilmiş rəsm sərgisi ilə başlayıb.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, "British Council" Azərbaycan ofisinin direktoru Francis Gardener-Trejo, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, UNICEF Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Heykens və digər qonaqlar iştirak ediblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov festivalın açılışında çıxış edərək pandemiyadan sonra məktəblilərin sağlamlığının qorunmasında, fiziki inkişafında bədən tərbiyəsi və idmanın artan rolundan danışıb. Firudin Qurbanov qeyd edib ki, TOPs proqramının əsas məqsədi fiziki tərbiyə dərslərinin maraqlı, cəlbedici keçirilməsini təmin etməkdir.

Zəfər Günü münasibətilə iştirakçıları təbrik edən nazir müavini bildirib ki, 30 ildən sonra işğaldan azad edilən torpaqlarımızın yenidən qurulması işlərinə artıq başlanılıb və bu işdə gənclərin də böyük rolu olacaq. Elə buna görə də bugünkü tədbirin böyük əhəmiyyəti var, çünki birbaşa gənclərin sağlamlığı ilə bağlıdır.

UNICEF Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Heykens idmanın gənclərin həyatında önəmli rolundan danışıb və qeyd edib ki, TOPs proqramı da bu mənada çox əlamətdardır, çünki müasir tədris yanaşmalarını həyata keçirmək imkanı yaradır.

"British Council' Azərbaycan ofisinin direktoru Francis Gardener-Trejo da tədbirdə çıxış edərək liderlik və kollektiv fəaliyyət bacarıqlarının inkişaf etdirilməsi istiqamətində gənclərin hərtərəfli inkişafı işinə töhfə verən TOPs proqramında əməyi keçən tərəfdaşlara təşəkkür edib və Azərbaycan xalqına Zəfər Günü münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev TOPs metodologiyasının artıq Akademiyanın tədris proqramına daxil edildiyini diqqətə çatdırıb.

Daha sonra estafet yarışlarının final mərhələsinə start verilib.

Yarışlar arası fasilələrdə məktəbin özfəaliyyət qrupunun üzvləri vətənpərvərlik mövzusunda müxtəlif rəqs və musiqi nömrələri ilə çıxış edib.

Festivalın sonunda qalib komandaların mükafatlandırılması mərasimi baş tutub. Qonaqlar qaliblərə diplomlar və kuboklar təqdim edib.

Qeyd edək ki, TOPs proqramı Təhsil Nazirliyi, "British Council" Azərbaycan, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, həmçinin "İnkişaf Naminə İdman" İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçirilir.

Proqramın məqsədi fiziki tərbiyə müəllimlərinin nəzəri bilikləri və praktiki peşə bacarıqlarını TOPs metodikası vasitəsilə zənginləşdirməklə daha maraqlı və rəngarəng tədris prosesi təşkil etməkdir.

# BDU-nun Fəxri doktoru diplomu təqdim edilib



Bakı Dövlət Universitetində (BDU) Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə BDU-nun Fəxri doktoru diplomu təqdim olunub.

Rektor Elçin Babayev dünyanın tanınmış siyasətçilərindən biri, müasir dünyada demokratiyanın inkişafına layiqli töhfələr vermiş ictimai-siyasi xadim, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçin Bakı Dövlət Universitetinə gəlişini əlamətdar hadisə adlandırıb. Bildirib ki, Ş.Caferoviç Bosniya və Herseqovinanın çiçəklənməsi, demokratik dəyərlərin möhkəmlənməsi, ölkənin tərəqqisi, həmçinin elmin və təhsilin inkişafı üçün böyük işlər görüb. Qonağın Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəklədiyini, Azərbaycan - Bosniya və Herseqovina arasında ikitərəfli əlaqələrin, təhsil və elmi əməkdaşlığın inkişafına böyük önəm verdiyini xüsusi vurğulayıb.

E.Babayev iki dövlət arasındakı diplomatik əlaqələrdən, yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərindən bəhs edib, eyni zamanda, qonağa BDU haqqında məlumat verib. Həmçinin BDU Elmi Şurasının Ş.Caferoviçə Fəxri doktor adının verilməsi haqqında qərarını elan edib. Ş.Caferoviç bu ada Azərbaycanla Bosniya və Herseqovina arasında ikitərəfli əlaqələrin və elmi əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə layiq görülüb.

Rektor Fəxri doktor diplomunu ali qonağa təqdim edib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizdə gedən inkişaf prosesindən, əldə edilən nailiyyətlərdən, Azərbaycanla Bosniya və Herseqovina arasında yüksək əməkdaşlıq əlaqələrindən söz açıb, Ş.Caferoviçin bu əlaqələrin inkişafındakı xidmətlərindən bəhs edib.

Sonda ictimai-siyasi xadim Ş.Caferoviç Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin inkişafından danışıb, Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə tədbir iştirakçılarını təbrik edib, siyasi, iqtisadi, mədəniyyət məsələlərində əməkdaşlığın davam etdiriləcəyinə əminliyini bildirib.

# Türkiyənin KTO Karatay Universiteti ilə birgə konfrans



Mingəçevir Dövlət Universiteti (MDU) və Türkiyənin KTO Karatay Universiteti arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans keçirilib. Konfransda hər iki universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantları iştirak ediblər.

MDU-nun rektoru Şahin Bayramov belə bir ortaq tədbirin keçirilməsinə göstərdikləri dəstəyə görə KTO Karatay Universitetinin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edib.

44 günlük Vətən müharibəsində doğma Qarabağın işğaldan azad olunduğunu və tarixi ədalətin bərpa edildiyini deyən Ş.Bayramov şanlı Qələbənin hər birimizə sonsuz sevinc və fəxarət hissləri yaşatdığını bildirib.

Türkiyənin daim Azərbaycan xalqının yanında olmasından və böyük mənəvi dəstək göstərməsindən danışan rektor ortaq tarixə, dilə, dinə və mədəniyyətə sahib iki ölkə arasındakı qardaşlıq münasibətlərinin qalibiyyətdən sonra daha yüksək səviyyəyə çatdığını söyləyib. Postmüharibə dövründə regionda yeni geosiyasi mənzərənin formalaşdığını və Azərbaycan-Türkiyə birliyinin əsas güc faktorlarından birinə çevrildiyini diqqətə çatdıran Ş.Bayramov Qarabağın dirçəlişi istiqamətində həyata keçirilən işbirliyindən bəhs edib.

KTO Karatay Universitetinin prorektoru Çağatay Ünüsan MDU ilə birlikdə türk dünyası tarixinin şanlı səhifələrini təşkil edən Qarabağ Zəfərinin birinci ildönümünün qeyd edilməsindən məmnunluğunu bildirib.

Tarix boyu türk dövlətlərinin böyük haqsızlıqlara və təzyiqlərə məruz qalmasından, vətənlərinin istiqlalı üçün böyük mücadilələr verməsindən danışan prorektor 44 günlük Vətən müharibəsində Türk dünyasının qəhrəmanlıq salnaməsinin yazıldığını bildirib və torpaqların işğaldan azad edilməsi uğrunda canından keçən şəhidlərə rəhmət, qazilərə şəfa diləyib.

Sonra konfransın proqramına uyğun olaraq KTO Karatay Universitetindən professor Murat Canıtez "Qarabağ Zəfərinin birinci ildönümü ərəfəsində: Türkiyə - Azərbaycan və Türk Dünyası üçün beynəlxalq ticarət və logistika baxışı", müəllim Fatma Didem Tunçes "Millətimiz bir, enerjimiz bir", MDU-dan baş müəllim İlham Məmmədov "Türk torpaqlarına qayıdış yeni tariximizin şanlı bir səhifəsidir" və müəllim Yeganə Məmmədli "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı potensialı və modernləşmə perspektivləri" mövzularında çıxışlar ediblər.

Konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanan məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Azərbaycan hər zaman istedadlı gəncləri ilə fəxr edib. Onların dünyanın müxtəlif ölkələrində əldə etdiyi uğurlar hər zaman bizləri sevindirib, qürur yaşadıb. Hər dəfə istedadlı gənclərimizin müxtəlif ölkələrdən gələn uğur sorağını aldıqca onların istedad və qabiliyyətlərinin imkanlarının hüdudsuz olması qənaətinə gəlirsən. Onlardan biri də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın məzunu Nərmin Nəcəflidir.**



# "BİZ qalib ölkənin vətəndaşlarıyıq"

## Nərmin Nəcəfli, Dövlət Proqramı məzunu: "Azərbaycanı dünyada təbliğ etməkdən qürur duyuram"

### Hannoverin ilk azərbaycanlı tələbəsi, ilk azərbaycanlı müəllimi...

*- Xaricdə nüfuzlu bir musiqi akademiyasında müəllim olmaq imkanı qazandınız. Bu, necə oldu?*

-2021-ci ilin iyun ayında Hannover Musiqi, Dram və Media Universitetinin doktoranturasına qəbul imtahanı verdim və çox böyük müsabiqədən keçərək qəbul oldum. Onu da qeyd edim ki, doktoranturaya çox az sayda musiqiçi qəbul edirlər. Qəbul olandan sonra universitetdə 6 il müddətində mənə dərs deyən professor Bernd Goetzke dedi ki, universitetdə vakant müəllim yerini tutmaq üçün müsabiqəyə qatılım. Onun bu təklifi məni bir tərəfdən çox sevindirdi və qürurlandırdı, cünki dünyaca məşhur bir professor məni universitetdə müəllim işləməyə layiq görmüşdü. Digər tərəfdən isə bu müsabiqədə iştirak etmək çox çətin və məsuliyyətli bir iş idi. Sənədlərimi təqdim edib Bakıya qayıtdım. Avqustda mənə məktub gəldi ki, ilkin mərhələdən keçmişəm və sentyabrın 15-də komissiya qarşısında növbəti mərhələdən keçməliyəm. Bu mərhələdə universitetin nüfüzlu professorlarından ibarət komissiya qarşısında 30 dəqiqəlik solo proqram ifa etmək, 20 dəqiqəlik mühazirə oxumaq və 2 tələbəyə hər biri 15 dəqiqə olmaqla dərs keçmək lazım idi. Bu tələbələrdən biri çox güclü, digəri isə zəif tələbə olur. Komissiya qəsdən iki müxtəlif səviyyəli tələbə seçir ki, sənin hər bir tələbəylə necə işlədiyini, fərdi yanaşmanı, hansı metodlarla işlədiyini qiymətləndirə bilsin. Bu, çox çətin bir müsabiqə idi. Üstəlik rəqiblərimin hamısı yaşda məndən böyük və nüfuzlu professorların yetirmələri idi. Belə bir çətin müsabiqədən keçib müəllim yeri qazandığım üçün çox sevinirəm. Mən Hannover Musiqi, Dram və Media Universitetinə qəbul olunan ilk azərbaycanlı tələbə idim, indi isə bu universitetdə çalışan ilk azərbaycanlı müəllim oldum.

### 7 tələbəm var

*- Kimlər sizə dəstək verdi? Ümumiyyətlə, belə bir imkan kimlərə və hansı keyfiyyətlərə görə verilir?*

- Professorumun mənə inanması böyük dəstək oldu. Mən onun məsləhəti ilə bu müsabiqəyə qatıldım. Bu suala cavab versəm, təvazökarlıqdan uzaq olacaq. Mənim Almaniyada təhsil aldığım müddətdə qazandığım uğurlar, universiteti əla qiymətlərlə bitirməyim, buraxılış imtahanlarında (həm bakalavr, həm magistr) aldığım ən yüksək qiymət (1,0), zəhmətkeşliyim, məsuliyyətim. Yəni, bu keyfiyyətlərimə görə professorum məni məsləhət gördü, lakın müsabiqədən keçmək və ya keçməmək artıq sənin özündən asılıdır.

*- Müəllimlik fəaliyyətinizə başlamısınızmı? Tələbələriniz varmı və hansı ölkələrdəndir?*

- Bəli, oktyabr ayının 11-dən müəllim kimi fəaliyyətə başlamışam. 7 tələbəm var: İngiltərə, İtaliya, Avstraliya, Çin, Rusiya, İran və Almaniyadan.

### Ən böyük arzum Şuşada konsert verməkdir

*- Pandemiya dövrü musiqi yaradıcılığınıza necə təsir etdi? Yaxın vaxtlarda nə kimi tədbirləriniz gözlənilir?*

- Bildiyiniz kimi, pandemiyaya görə bir çox tədbirlərimiz təxirə düşmüşdü. Lakın mən hətta pandemiyanın ən kritik vaxtında Berlində solo konsertlə çıxış etmişəm. İki klip hazırladım. Adil Bəbirovun "Prelüd-skertso" əsərini 44 gün davam edən və Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsinə həsr etmişəm. Bu əsərdə hər şey var: kədər, ağrı, nostalji, həyəcan, eyni zamanda Azərbaycan xalqının göstərdiyi mübarizə, qətiyyət, xarakter, cəsarət ruhu, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Rəşadətli Ordumuzun qazandığı qələbə... Bilirsiniz, müharibə başlayanda mən Almaniyada idim. Azərbaycandan çox uzaqda olsam da, baş verənlərin bütün ağrılarını hiss edirdim. Otağımın küncünə çəkilib, sosial şəbəkələr vasitəsilə üç dildə (alman, ingilis, rus) informasiya müharibəsi aparırdım. O günlər mənim üçün çox çətin idi. Özümə yer tapa bilmirdim, hətta fortepianoya belə toxunmurdum. Azərbaycana qayıdıb bu çətin və şərəfli vaxtda Vətənimdə olmaq istəyirdim. Hər gün səbirsizliklə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışlarını gözləyirdim. Cənab Prezident hər dəfə ordumuzun işğaldan azad etdiyi ərazilərimizin adlarını elan edəndə sevincdən gözlərim dolur, ordumuzla, Ali Baş Komandanımızla qürur duyurdum. Ümummilli liderimiz Heydər Əliyevin sözlərilə desək, fəxr edirdim ki, mən Azərbaycanlıyam. Sonra Bakıya gəldim və noyabr ayında ölkəmizin Zəfərini öz gözlərimlə görə bildiyim və baş verənlərin şahidi olduğum üçün çox xoşbəxtəm.

Qələbəmizdən dərhal sonra Adil Bəbirovun "Prelüd-skertso" əsərini ifa etdim və bu musiqi nömrəsini Qarabağ müharibəsinə həsr etdim. 28 may 2021-ci il tarixdə Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin təşəbbüsü və maliyyə dəstəyi ilə 28 May - Respublika Gününə həsr olunmuş klipim ekranlaşdırılıb. 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn tədbirlər planı çərçivəsində çəkilən klip bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baletindən vals musiqi parçasının ifası üzərində ərsəyə gəlib.

Klipdə Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə Avropa İttifaqının aparıcı ölkələrinin mədəni irsinin qorunması istiqamətində görülmüş işlər, həyata keçirilmiş layihələr, dünya əhəmiyyətli abidələrin bərpasına göstərilən yardımlar, həmçinin Azərbaycan həqiqətlərini əks etdirən layihələrin reallaşdırılması, heykəl və abidələrin Avropa şəhərlərində ucaldılması ilə bağlı təsvir və açıqlamalar nümayiş olunur. Noyabrın 6-da İsveçrənin Zürix şəhərində Zəfər gününə həsr olunmuş tədbirdə Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayevin əsərlərindən ibarət konsert proqramı ilə çıxış etdim. Bundan başqa, Almaniyada və Avropanın bir neçə şəhərlərində konsertlərim olacaq. Ancaq mənim ən böyük arzum Şuşada və işğaldan azad edilmiş digər rayonlarımızda konsert verməkdir. Ümid edirəm ki, bu arzum tezliklə həyata keçər.

### Mən qələbəni izləmədim, yaşadım...

*- Azərbaycan hazırda özünün şərəfli tarixini yaşayır. Böyük Qələbəmizi bir gənc olaraq necə izlədiniz?*

- Mən qələbəni izləmədim, yaşadım. Müharibəni bütün ağrıları, kədəri ilə yaşadığım kimi, qələbəni də bütün sevinci ilə yaşadım. Noyabrda əlimdə bayraq Bakı küçələrini dolaşanda sevincimin həddi-hüdudu yox idi. Allah bizə bu xoşbəxt günləri yaşadan şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Artıq biz qalib ölkənin vətəndaşlarıyıq. Və mən qalib ölkənin vətəndaşı olaraq Azərbaycanı, Azərbaycan mədəniyyətini dünyada təbliğ etməkdən qürur duyuram.

**Oruc MUSTAFAYEV**

## TANITIM

1996-cı ildə Bakıda anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində fortepiano ixtisası üzrə təhsil alıb. 2004-2007-ci illərdə Bakı, Moskva, Tbilisidə 8-12 yaşlı uşaqlar arasında keçirilən beynəlxalq müsabiqələrin qalibi, II və IV beynəlxalq Rostropoviç, 2011-ci ildə III beynəlxalq Üzeyir Hacıbəyli festivallarının iştirakçısı olub. 2008-ci ilin mayında ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş I Respublika müsabiqəsində "Qran-pri"yə layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə xüsusi aylıq təqaüdə layiq görülüb və adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ına yazılıb. 2010-cu ildə Almaniyada keçirilən beynəlxalq müsabiqədə çıxış edərək 38 iştirakçı arasında seçim turundan qalib çıxan 8 nəfərdən biri olub. Uğurlu çıxışına görə xüsusi mükafata layiq görülüb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fransanın Reyms şəhərində keçirilən "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" adlı konsert proqramında uğurla çıxış edib. İngiltərənin Nyukasl şəhərində gənc pianoçuların V beynəlxalq müsabiqəsində I yerə, 2016-cı ildə Gənclər üçün Prezident mükafatına layiq görülüb.

2014-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirib və həmin ildən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Almaniyanın Hannover şəhərindəki Musiqi, Teatr və Dram Universitetində təhsilini davam etdirib. 2021-ci ildə həmin universitetin magistraturasını bitirib. Hazırda adıçəkilən universitetin doktorantura pilləsində təhsil alır.

2017-ci ildə İspaniyanın Granada şəhərində keçirilən Beynəlxalq müsabiqədə xüsusi mükafata layiq görülüb. 2019-cu ildə Hannover Dövlət Opera Teatrının dövlət simfonik orkesteri ilə birlikdə keçirdiyi " Nijinskiy" müsabiqəsində qalib gələrək 2019-2021-ci il teatr mövsümündə Dövlət Simfonik Orkesteri ilə qonaq solist kimi çıxış etmək hüququ qazanıb. Bu layihədə uğurlu çıxışları bəyənildiyinə görə yenidən 2021-2022-ci il teatr mövsümündə də Hannover dövlət simfonik orkesteri ilə qonaq solist kimi çıxış etməyə dəvət edilib.

N.Nəcəfli Fransa, ABŞ, İtaliya, Rusiya, Belçika və Böyük Britaniyada uğurlu konsert proqramları ilə çıxışlar edib. Bu yaxınlarda isə Nərmin musiqi karyerasında ən böyük uğurlardan birinə imza atıb. Təhsil aldığı universitet rəhbərliyi, nüfuzlu akademik heyət Nərminin istedad və qabiliyyətini nəzərə alaraq onu Avropanın nüfuzlu musiqi təhsili müəssisəsində müəllim işləməsinə qərar verib.

# Məzunlar Vətən müharibəsi iştirakçısı olmaqdan qürur duyurlar




## Bir qrup DP məzunu ilə vebinar keçirilib

Təhsil Nazirliyinin təşkilatçılığı ilə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” (DP) çərçivəsində xaricdə təhsil almış və 44 günlük Vətən müharibəsində könüllü olaraq ön və arxa cəbhələrdə yaralı hərbiçilərə tibbi yardım göstərmiş bir qrup məzunun iştirakı ilə onlayn vebinar keçirilib.

8 noyabr — Zəfər Gününə həsr edilmiş vebinarın təşkilində əsas məqsəd DP məzunlarının Vətən müharibəsi zamanı tibb sahəsində göstərdikləri xidmət ətrafında fikir mübadiləsi aparmaq və Zəfərin qazanılmasında oynadıqları rolu vurğulamaqdır.

Görüşdə iştirak edən Rusiya və Türkiyənin bir sıra universitetlərində müxtəlif ixtisaslarda tibb təhsili almış məzunlar Vətən müharibəsinə dair xatirələrindən danışıb və bu prosesin iştirakçısı olmaqdan qürur duyduqlarını dilə gətiriblər.

Görüş zamanı DP məzunları müharibədə könüllü olaraq yaralılara tibbi xidmət göstərməyin onlar üçün mənəvi borc olduğunu vurğulayıb və bundan sonra da hər zaman ölkədə səhiyyənin inkişafına töhfə verəcəklərini bildiriblər.

Qeyd edək ki, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün səfərbərliyə cəlb edilən, yaralıların müalicəsi üçün tibbi xidmətə könüllü yollananlar sırasında “2007-2015 Dövlət Proqramı” və Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində xaricdə təhsil almış şəxslər də olub.

# “Azərbaycanın ZƏFƏRİ”

## Respublika festivalının qalibləri mükafatlandırılıb




Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə 8 noyabr — Zəfər Günü münasibətilə uşaq və gənclər arasında keçirilən “Azərbaycanın Zəfəri” adlı respublika festivalının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin “Cücələrim” ansamblı və Qavaldaş nağara ritm qrupunun, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının, Bakı şəhəri 21 saylı Uşaq Musiqi Məktəbinin, Ağdam şəhər Uşaq Musiqi Məktəbinin, Samux, Kürdəmir, Şuşa və Bakı şəhərlərinin uşaq incəsənət məktəblərinin hərbi yaradıcılıq kollektivlərinin, ümumilikdə 152 nəfərdən ibarət 12 kollektivin iştirakı ilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında keçirilib.

Respublika festivalına Bakı şəhəri və respublikamızın regionlarındakı təhsil müəssisələrindən solo, duet, kollektiv olmaqla 4 yaş qrupunda (10-13, 14-17, 18-21 və qarışıq yaş qrupları) vokal, xor, xoreoqrafiya, hərbi ansambl nominasiyaları üzrə 500-ə yaxın iştirakçı qatılıb, 104 videoçarx finala vəsiqə qazanıb. Münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdirilib.

Qeyd edək ki, festivalın məqsədi milli qürurun təntənəsinə çevrilən misilsiz qələbənin qeyd olunması, gənc nəsildə vətənə, torpağa məhəbbət hissinin artırılması, hərbi-vətənpərvərlik ruhunun və milli-mənəvi dəyərlərin təbliği, uşaq və gənclərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkar edilməsi, həmçinin Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın əziz xatirəsinin ehtiramla yad edilməsi, müasir ordumuzun gücünün təbliği və gənclərimizin mərd, cəsur, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşdırılmasından ibarət olub.





# Paytaxt məktəblilərinin ZƏFƏR sevinci

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində 8 noyabr-Zəfər Günü ilə bağlı tədbirlər təşkil olunub.

Təhsil Nazirliyinin əmri ilə təsdiqlənmiş “27 sentyabr Anım Günü və 8 noyabr Zəfər Günü ilə bağlı Tədbirlər Planı”na və BŞTİ-nin müvafiq əmrinə əsasən ümumi təhsil müəssisələrində Zəfər Gününə həsr edilmiş konfranslar, seminarlar, mühazirələr, “dəyirmi masa”lar, “açıq dərs”lər, vebinarlar, ədəbi-bədii kompozisiyalar, foto və rəsm sərgiləri təşkil olunub.

Tədbirlərdə canlarını ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qurban vermiş şəhidlərimizin müqəddəs ruhları bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfər Günü barədə şagirdlərə ətraflı məlumat verilib. Vətən müharibəsində qabaqcıl hərbi texnika və texnologiyalardan məharətlə istifadə edən Azərbaycan Ordusunun dünya hərb tarixində yeni səhifə yazması barədə söhbət açılıb. Möhtəşəm qalibiyyətin əldə edilməsində müasir hərbi biliklərə və döyüş bacarıqlarına sahib, qəhrəman Azərbaycan əsgər və zabitlərinin mühüm pay sahibi olduğu diqqətə çatdırılıb.

Qeyd edək ki, BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrində, həmçinin Vətən müharibəsində qəhrəmanlıq göstərən əsgər və zabitlərlə, qazilərlə, şəhidlərin ailə üzvləri ilə görüşlər keçirilib, onların həyat və mübarizə yolunu əks etdirən videoçarxlar nümayiş olunub.

Eləcə də təhsil müəssisələrində Zəfər Gününə həsr olunmuş yaradıcılıq müsabiqələri (rəsm, inşa, şeir, mahnı, əl işləri, videoçarx, təqdimat), intellektual oyunlar keçirilib. Şagirdlərin Vətən Müharibəsi Memorial Kompleksinə və Hərbi Qənimətlər Parkına ekskursiyaları təşkil olunub.

Zəfər Günü ilə bağlı məktəblərdə Zəfər muzeyləri, lektoriyalar, şəhidlərin büst və barelyefləri açılıb, şagirdlərin və şəhid övladlarının əl işlərindən ibarət sərgilər təşkil olunub.

Bundan əlavə, təhsil müəssisələrində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyaları da keçirilib.

Piralı Əliyev - 65

# Elmə və təhsilə həsr olunmuş ömür

**Ötən əsrin səksəninci illəri idi. Aspiranturaya qəbul başa çatmışdı. Ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə də bir nəfər aspirant qəbul edilmişdi - Piralı Behbudalı oğlu Əliyev. O, ədəbiyyatın tədrisi metodikası şöbəsinə təhkim olundu. Həmin zamanlar institut Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu adlanırdı. Şöbələr fənlərin tədrisi metodikaları üzrə fəaliyyət göstərirdi. Yəni: Azərbaycan dilinin tədrisi metodikası şöbəsi, kimya və biologiyanın tədrisi metodikası şöbəsi, fizika və riyaziyyatın tədrisi metodikası şöbəsi və s. Piralı müəllimin elmi rəhbəri pedaqoji elmlər doktoru, professor Şəmistan Mikayılov təsdiq edildi.**



Piralı müəllim Füzuli rayonundan gəlmişdi. O, 1956-cı ilin iyul ayının 17-də Füzuli rayonunun Yağlıvənd kəndində anadan olmuşdu. Xankəndi Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirərək, doğma Yağlıvənd kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyirdi. Adlı-sanlı müəllim kimi tanınırdı. Nə şagirdlər, nə pedaqoji kollektivin üzvləri, nə də rayon maarif şöbəsinin rəhbərliyi onun məktəbdən, rayonun müəllimliyindən getməsini istəmirdilər. Fəqət Piralı müəllim qət etmişdi, elmin enişli-yoxuşlu yollarında addımlamaq fikrindəydi. Tədqiqatlara qoşulmaq, alim olmaq üçün özündə dərin ehtiyac duyurdu.

Beləliklə, arzularının qanadlarında Bakıya gəlmişdi. Atalarımız demişkən: "Niyyətin hara, mənzilin ora".

Tanış olduq. Bildim ki, Piralı müəllim öz fənninin gözəl bilicisidir, həm nəzəri, həm metodik hazırlığa malik ədəbiyyat müəllimidir. Onun tezliklə ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə alim kimi yetişəcəyinə şəkk-şübhəm qalmadı.

O vaxtlar ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə iki nəfər elmlər doktoru vardı: Şəmistan Mikayılov və Camal Əhmədov. İllər keçdi. Piralı müəllim 1988-ci ildə "Ədəbiyyatın tədrisi prosesində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi" (Azərbaycan ümumtəhsil məktəblərinin VIII-X sinif materialları əsasında) mövzusunda namizədlik; 2010-cu ildə "Azərbaycan ümumtəhsil məktəblərində klassik seir nümunələrinin tədrisinin nəzəri və praktik problemləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etdi. İndi respublikada ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə yalnız bir nəfər elmlər doktoru var - Piralı Behbudalı oğlu Əliyev.

Piralı müəllim 1984-cü ildən bizim institutda -Azərbaycan Respublikasının Təhsil İnstitutundadır (əvvəlki Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu). Qeyd etdiyim kimi, aspirant, elmi işçi, baş elmi işçi,Tərbiyə problemləri şöbəsinin müdiri olmuş, hazırda Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsinin müdiridir.

Vaxtilə mən də Tərbiyənin ümumi problemləri şöbəsində çalışmışam. Piralı müəllim hələ aspirant olduğu illərdə.

SSRİ-yə daxil olduğumuz illərdə Moskvada Pedaqoji Elmlər Akademiyası fəaliyyət göstərirdi. Akademiyanın xeyli institutu vardı. Ötən əsrin 70-ci illərində SSRİ PEA-da yeni bir institut yaradıldı - Tərbiyə Problemləri İnstitutu. Bunu nəzərə alaraq, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda da Tərbiyənin ümumi problemləri şöbəsi təşkil olundu və müsabiqə elan edildi. Həmin zamanlarda mən Sabirabad rayonunun Şıxsalahlı və Qaragüney kənd məktəblərində təyinatla ingilis dili müəllimi işləyirdim. Sənədlərimi təqdim edərək, müsabiqədən keçdim və yeni yaradılmış şöbəyə kiçik elmi işçi vəzifəsinə qəbul olundum. Namizədlik, doktorluq dissertasiyaları müdafiə etdim. İnstitutun Ali və orta ixtisas təhsili şöbəsinə müdir təyin olundum.

Tərbiyənin ümumi problemləri şöbəsinin ilk müdiri pedaqoji elmlər namizədi Mirzəağa Ağayev, sonralar Oruc Vəliyev və pedaqoji elmlər namizədi Ağadadaş Babayev oldu. Arada Tərbiyənin ümumi problemləri şöbəsi Pedaqogika nəzəriyyəsi və tarixi şöbəsi ilə birləşdirildi. İllər keçdi. Mən institutun elmi katibi oldum. Tərbiyə problemləri şöbəsi yenidən təşkil olundu və Piralı Əliyev onun müdiri təyin edildi.

Mənim elmi əsərlərimin əksəriyyəti tərbiyə məsələlərinə aiddir, hətta namizədlik və doktorluq dissertasiyalarım da.

Piralı müəllim Tərbiyə problemləri şöbəsinə müdir təyin olunandan sonra ədəbiyyatın tədrisi metodikası ixtisasından daha çox tərbiyə məsələlərinə aid elmi məqalələr, tərbiyə proqramları, monoqrafiya, kitab və kitabçalar yazdı. Diqqət edək: "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi", "Təhsil müəssisələrində tərbiyə işinin təşkili", "Sinif rəhbərinin valideynlərlə əlaqəli işinin təşkili sistemi", "Ümumtəhsil məktəbləri üçün tərbiyə proqramı", "Məktəblilərin tərbiyəsi: problemlər, perspektivlər" və s.

Piralı müəllim elmi tədqiqatla məşğul olmaqla yanaşı ali və ümumtəhsil məktəblərində də ədəbiyyat fənnini tədris etmişdir və etməkdədir. Uzun müddət Bakının Suraxanı rayonunun 282 və 290 nömrəli məktəblərində, eyni zamanda "ERA" tam orta ümumtəhsil məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə müxtəlif tədbirlərdə fəallıq göstərir. Müəllimlərin sentyabr (əvvəllər avqust) konfranslarında nazirliyin nümayəndəsi kimi ayrı-ayrı rayonlarda olmuş, təhsil standartlarının, mərkəzləşdirilmiş imtahanlarda ədəbiyyatdan test tapşırıqlarının hazırlanmasında, ilin ən yaxşı müəllimi müsabiqələrinin təşkili və həyata keçirilməsində yaxından iştirak etmişdir.

Piralı müəllimin ən çox müraciət etdiyi, tədqiq etdiyi sahələrdən biri vətənpərvərlik tərbiyəsidir. Namizədlik dissertasiyası da bu mövzuya həsr olunub. Bütün bunlar təsadüfi deyil. O, Vətənə, doğma torpağa son dərəcə bağlı adamdır. Düşmənə sonsuz nifrəti vardır. Onun babası Füzuli rayonunun Yağlıvənd kəndinin ilk kolxoz sədri olmuşdur. Adını daşıdığı və üzünü görmədiyi bu şəxsi 1933-cü ildə 42 yaşında, əmisi Bayraməlini isə 1955-ci ildə 22 yaşında erməni faşistləri qətlə yetirmişlər.

Piralı müəllimin qardaşı Gülalı I Qarabağ müharibəsində iştirak etmiş (1992-1994-cü illər) və Horadiz ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Bütün bunlar onun elmi yaradıcılığından kənarda qala bilməzdi. O, öz əsərlərində böyüyən nəsildə, gənclərdə vətənpərvərlik duyğusunun və düşmənə nifrət hisslərinin formalaşdırılmasını vacib bilmiş, Vətənin müdafiəsinə həmişə hazır olmağı hər birimizin müqəddəs borcu, vəzifəsi kimi ön plana çəkmişdir.

Təhsilin məzmunu ilə bağlı Piralı müəllimin gördüyü işlər xüsusilə diqqətəlayiqdir. O, aşağıdakı istiqamətlərdə tədqiqatlar aparmış və tədqiqatlarının nəşrinə nail olmuşdur: "Ümumtəhsil məktəblərində V-XI siniflər üçün ədəbiyyat proqramı", "Ədəbiyyatdan Azərbaycan Respublikası məktəblilərinin təhsil standartları", "Ümumtəhsil məktəblərində poetikanın tədrisinin nəzəri və praktik problemləri", "Ədəbiyyatdan sxemlər və cədvəllər (Ədəbiyyat nəzəriyyəsi materialları üzrə)", "Ümumtəhsil məktəblərində Azərbaycan klassik ədəbiyyatının tədrisi (şeir nümunələri əsasında)", "V-XI siniflərin ədəbiyyat fənnindən qiymətləndirmə standartları və vəsaitlərinin hazırlanması", "Dədə Qorqud" dastanından "Bayburanın oğlu Bamsı Beyrək boyu" və "Basatın Təpəgözü öldürməsi boy"u (məktəblilər üçün sadələşdirilmişdir)", "Uşaq ədəbiyyatının tədrisi problemləri", "Ədəbiyyatın tədrisi metodikası proqramı (Ali məktəblərin bakalavr təhsili alanlar üçün), "Ümumi təhsilin dövlət standartları: ədəbiyyat fənni", "Mütaliə mədəniyyətinin formalaşdırılması yolları" və s.

Ümumiyyətlə, professor Piralı Əliyevin 170-ə yaxın elmi əsəri, o cümlədən 2 monoqrafiya, 5 metodik vəsaiti, çoxsaylı elmi məqalələri vardır. Türkiyənin, Ukraynanın, Qazaxıstanın, Özbəkistanın və Rusiya Federasiyasının nüfuzlu jurnallarında 11 məqalə dərc etdirmişdir.

Piralı müəllim səmərəli tədqiqatlar aparır. Onun tədqiqatları aşağıdakı istiqamətləri əhatə edir: "Təhsil müəssisələrində tərbiyə işinin təşkilinin elmi-nəzəri əsasları","Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili, planlaşdırılması və idarə olunması", "Təhsil sisteminin idarə edilməsinin nəzəri-metodoloji əsasları","Tərbiyə işində kollegial idarəetmə və özünüidarə", "Ümumtəhsil məktəblərində sinif rəhbəri işinin təşkili", "Ümumtəhsil müəssisələrində təhsilalanlarla məktəbdənkənar tərbiyə işinin təşkili", "Təhsilin idarə olunması və iqtisadiyyatı" və s.

Piralı müəllim elmi kadrların hazırlanması sahəsində də səmərəli fəaliyyət göstərir. Elmi rəhbərliyi ilə 2 nəfər fəlsəfə doktoru yetişmişdir. Rəsmi opponent kimi də fəaliyyəti diqqətəlayiqdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert komissiyasının üzvüdür.

Piralı müəllimin əməyi dövlət, Təhsil Nazirliyi və institut tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əməkdar müəllim fəxri adına layiq görülmüş, təhsil nazirinin əmri ilə "Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi" döş nişanı və Fəxri fərmanı ilə təltif olunmuşdur.

Mən Piralı müəllimlə tanış olanda onun 28 yaşı vardı. İllər gör nə sürətlə ötüb keçib. İndi o, artıq 65 yaşına çatıb. Sağlam və gümrahdır, həvəslə, yüksək enerji ilə fəaliyyət göstərir, yazıb yaradır.

Arzum budur ki, o, 70, 80, 90, 100 yaşında da belə şövqlə fəaliyyətdə olsun.

Piralı müəllim, 65 yaşın mübarək!!!

**Akif ABBASOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

# Aşıq Ələsgər işığında...

**Tanrı ona istedad, güclü fəhm, incə duymaq qabiliyyəti bəxş etmişdi. Xalq şeirinin tükənməyən sərvətidir O! Böyük sənətkar Aşıq Ələsgər aşıq poeziyasının zirvəsini fəth edib və bu poeziyaya məzmun, forma rəngarəngliyi, xalq dilini gətirib.**



Aşıq Ələsgərin atası Göyçə mahalının Ağkilsə kəndinin hörmətli şəxslərindən biri olmaqla yanaşı, həm də bədahətən şeir demək, şeir yazmaq məharətinə sahib idi. Bu qabiliyyət genetik olaraq oğluna ötürülmüşdü.

Uşaqlıq və yeniyetməlik illərini Ağkilsədə keçirən Aşıq Ələsgər xüsusi təhsil ala bilməsə də, sənətin sirlərini el sənətkarları və ağsaqqallarının yanında öyrənirdi. Çox güclü yaddaşı vardı və eşitdiyi söhbətlərin hamısını hafizəsində saxlayaraq, sonra da çətinlik çəkmədən danışa bilirdi. Aşığın irsini araşdıran tədqiqatçıların sözlərinə görə, Ələsgər müxtəlif və rəngarəng yaradıcılıq nümunələri ilə özündən sonra gələn sənətkarlara, aşıqlara da güclü təsir göstərib.

O, bir çox dünya elmləri ilə yanaşı, İslamı da dərindən bilirdi və öz yaradıcılığında geniş yer verirdi:

*Ələsgər haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə.*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdir.*

...Aşıq Ələsgərin duyğu və düşüncələri təbiətə, həyata, gerçəkliklərə münasibətindən doğaraq lirik parçalara çevrilirdi. Onun şeirlərinə "Ya Əli", "Dağlar", "Yaylaq", "Pəri", "Mələk", "Sarı köynək" və digər nümunələri misal göstərmək olar. Aşıq Ələsgərin şeirləri xalq dilimizin necə də zəngin və axıcı olduğunu bir daha sübut edir. Onun poeziyasında Azərbaycan dilinin orijinal ifadə vasitələri, ana dilimizin qüdrəti, ahəngdarlığı, musiqisi var. El sənətkarının şeirləri dilimizin gözəlliyini özündə daşıyır və gələcək nəsillərə ötürür; poeziyasındakı fəlsəfi fikirlər bir sıra mətləblərə aydınlıq gətirir. "Bir mərd ilə acı yesən, şirindi, yüz namərdlə şəkər yesən dad olmaz" misralarının mesajı atalar sözlərinin hikmətinə bərabərdir. Aforizmlər, hikmətli ifadələr Aşıq Ələsgər poeziyasının fəlsəfəsini keçmişdən bu günə gətirərək, gələcəyə doğru aparır...

Aşıq Ələsgər öz yaradıcılığı ilə söz xəzinəmizə neçə-neçə qiymətli əsərlər bəxş edib. Bu əsərlərin dəyəri zaman keçdikcə daha da artır. Onda gizlənən hikmət, məna və fəlsəfə illər, əsrlər keçsə də itməyəcək, söz xəzinəmizin ən qiymətliləri olaraq zamanla qoşa addımlayacaq.

Görkəmli söz ustadı Aşıq Ələsgərin bu il 200 illik yubileyinin ölkə səviyyəsində qeyd edilməsi ana dilimizə, söz xəzinəmizə, ədəbiyyatımıza verilən misilsiz qiymətdir.

**Yeva FƏRƏCOVA,**
*Bakı şəhər 53 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi*

# Yeniyetmə və gənclər arasında turnir



Təhsil Nazirliyi "Təhsil" Respublika İdman Mərkəzinin 11 nömrəli Uşaq-Gənclər İdman Məktəbində 8 noyabr - Zəfər Günü və 9 noyabr — Dövlət Bayrağı Günü münasibətilə yeniyetmə və gənclər arasında turnir keçirilib.

Stolüstü tenis, boks, şahmat, basketbol və futbol idman növləri üzrə keçirilən turnirin bağlanış mərasimində çıxış edən idman məktəbinin direktoru Natiq Ələkbərov bildirib ki, hər iki bayram günü xalqımızın həyatında əlamətdar və müqəddəs günlərdəndir. N.Ələkbərov sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsini tariximizin ən parlaq səhifəsi adlandırıb. Vurğulayıb ki, Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Şuşanın işğaldan azad edilməsi ordumuzun daha da güclü olmasını bir daha sübuta yetirdi. Bu əməliyyat ordumuzun peşəkarlığı, hərbçilərimizin cəsarəti, qəhrəmanlığı sayəsində Şuşanın azadlığı ilə başa çatdı.

Qaradağ rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov da hər iki bayramın əhəmiyyətindən danışaraq qeyd edib ki, Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kapitulyasiyasına nail olduq!

Tədbirin sonunda I, II, III yerləri tutan idmançılar diplom, medal və hədiyyələrlə təltif olunublar.

**Rəşad ZİYADOV**

# “Muzeylərimizi tanıyaq və tanıtdıraq”

## İnteraktiv ekskursiya layihəsinə start verilib



Noyabrın 6-da Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə “Muzeylərimizi tanıyaq və tanıtdıraq” adlı interaktiv ekskursiya layihəsinə start verilib.

Ekskursiyalarda rayon və kəndlərdən olan şəhid və qazi övladları, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, az təminatlı ailələrin övladları, internatdan olan məktəblilər iştirak edir.

Layihənin məqsədi məktəblilərin asudə vaxtını səmərəli təşkil etmək, həmçinin onların dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, məktəbliləri muzeylərin kolleksiya fondu ilə tanış etmək, şagirdlərə ölkəmizin qədim tarixi, milli-mənəvi dəyərləri barədə daha ətraflı məlumat verməkdən ibarətdir.

İnteraktiv ekskursiyalar Heydər Əliyev Mərkəzinə, Azərbaycan Milli İncəsənət Muzeyinə, Hərbi Qənimətlər Parkına, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinə, Azərbaycan Xalça Muzeyinə, “İçərişəhər” Dövlət-Tarix Memarlıq Qoruğuna, Qobustan Milli-Tarix Bədii Qoruğuna, Suraxanı Gəmi Muzeyinə və Yarat Müasir İncəsənət Mərkəzinə təşkil olunur.

6-7 noyabr 2021-ci il tarixlərində layihə çərçivəsində təşkil olunan birgünlük ekskursiyada Abşeron, Cəlilabad, ikigünlük ekskursiyada isə Ağstafa, Balakən, Gəncə, Goranboy, Qax, Qazax, Qəbələ, Şəki, Tovuz, Zaqatala rayonlarının məktəbliləri iştirak edib.

“Muzeylərimizi tanıyaq və tanıtdıraq” adlı interaktiv ekskursiya layihəsinin icrası cari ilin noyabr-dekabr aylarının şənbə-bazar günləri davam etdiriləcək.




# Müəllimlərə dəyərli hədiyyə

**Güzəran psixologiyasının tarixi qədim olsa da, elmi psixologiya hələ cavan elmlər sırasındadır. XX əsrə qədər insanların həyat fəaliyyətlərinin tənzimlənməsində güzəran psixologiyasının,obrazlı desək, gücü çatmışdır. Keçən əsrin əvvəllərindən etibarən urbanizasiya və miqrasiya kimi demoqrafik proseslərin intensivliyi nəticəsində şəhər həyat tərzi dominantlıq əldə edəndə, insanların həyat - fəaliyyətlərində köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Əgər elmi psixologiya yaranmasaydı, güzəran psixologiyası yeni həyat tərzində insanların fəaliyyətlərinin tənzimlənməsinin öhdəsindən, çətin ki, gələ bilərdi. Şəhər həyat tərzi öz intensivliyini günü-gündən artırır. Gözümüzün önündə bir tərəfdən insan münasibətlərində gərginliklər artır, digər tərəfdən insanların peşə fəaliyyətində psixoloji biliklərsiz uğur əldə etmək çətinləşir. XX əsri bəlkə də, psixologiya əsri adlandırmaq olar, bu əsrdə psixologiyada o qədər fundamental tədqiqatlar aparılıb ki, onların nəticələri tətbiq edilməsəydi insanlar üçün yaşamaq, sadəcə olaraq, çətin olardı. Bu gün, XXI əsrin əvvəllərində isə psixologiya elmi olmadan, sadəcə olaraq, keçinmək mümkün deyil. Buna görədir ki, ildən-ilə universitetlərdə hazırlanan mütəxəssislərə daha böyük həcmdə və daha dərin məzmunda psixologiya fənni tədris edilir. Bu fənnin tədrisi iki istiqamətdə mühümdür. Birincisi, insanların öz sosial həyatlarında uğur qazanması, ikincisi öz peşə fəaliyyətlərini daha düzgün təşkil etməsi üçün.**

## Dərs vəsaitində müasir müəllim üçün zəruri psixoloji biliklər maraqlı və məzmunlu şəkildə şərh edilib

Bütün peşə sahiblərinə psixologiyanı öyrənmək vacibdir. Bu, həm istənilən müəssisənin idarə edilməsi, həm müəssisədaxili münasibətlərin düzgün tənzimlənməsi, həm sosial həyatda insanlarla münasibətlərin düzgün qurulması, həm də peşə karyerası üçün zəruri əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, müasir dövrdə xüsusən inkişaf etmiş ölkələrdə hazırlanan kadrlara psixoloji biliklər öyrədilməklə yanaşı, həm də bütün müəssisələrdə psixoloq fəaliyyət göstərir.

Müəllimlik peşəsi üçün isə psixologiya ana fəndir. Məsələyə belə yanaşma XX əsrin ikinci yarısında təhsil konsepsiyalarının psixoloji tədqiqatların nəticələri əsasında hazırlanmasından sonra daha da aktuallaşdı. Psixoloji biliklərə yiyələnmədən müasir dövrdə müəllimin peşə uğurları əldə etməsi mümkünsüz görünür. Bəlkə də bu reallıqdan çıxış edərək, son illərdə müəllim ixtisasları üzrə kadr hazırlığında psixologiyanın tədrisinə daha çox yer ayrılır. Müəllimlər üçün psixologiyanın tədrisi özünəməxsusluqlara malikdir. Bu reallığı görən Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının əməkdaşları müəllim hazırlığı ixtisaslarında tədrisin keyfiyyətini artırmaq üçün kollektiv müəlliflikə (dos. G.Q.Hüseynova, dos. R.V.Cabbarov, dos. İ.M.Məmmədli, dos. E.A.Piriyeva, fəlsəfə doktoru M.H.Mustafayev, fəlsəfə doktoru M.N.Eyyubova, fəlsəfə doktoru Ş.R.Aslanova, müəllim N.Ş.Qurbanova, müəllim D.Y.İbrahimova, müəllim C.E.Səfərova, müəllim A.G.Dadaşova) psixologiya fənni üzrə müəllim hazırlığı ixtisasları üçün bakalavr pilləsi üzrə dərs vəsaiti hazırlamışlar. Dərs vəsaitinin elmi redaktoru psixologiya elmləri doktoru, professor K.R.Əliyevadır.

Fikrimizcə, dərs vəsaitinin özünəməxsusluqlarından birincisi odur ki, o kollektiv əməyin məhsuludur. Yəni, hər bir müəllif vəsaitdə özünün tədqiqat apardığı problemə aid məsələləri işıqlandırmışdır. Bunun nəticəsidir ki, dərs vəsaiti dərin məzmuna, səlis və aydın dilə malikdir, asan oxunur. Dərslik kollektiv əməyin məhsulu olduqda, təqdim etdiyimiz Psixologiya dərs vəsaitində olduğu kimi, özünün orijinal məzmunu və yüksək dəyəri ilə fərqlənir.

Hər bir elmi öyrənərkən, ilk növbədə, onun bir elm kimi təşəkkül tapması, obyekti, predmeti, anlayışları, tədqiqat metodları və s. izah edilir. Müəlliflər bu ənənəyə sadiq qalaraq, əvvəlcə psixologiyanın predmetini, vəzifələrini, psixologiyanın elmlər sistemində yerini, psixologiya elminin əsas sahələrini açıqlayır, sonra psixologiyanın inkişaf tarixinin əsas mərhələlərinə diqqəti cəlb edirlər. Psixologiyanın bir elm kimi inkişafı V.Vundtun eksperimental psixologiya laboratoriyası yaratması ilə başlanır. V.Vundtun nailiyyətlərini açıqlayan müəlliflər, bununla bərabər XX əsrdə yeni psixologiya məktəblərinin - humanist psixologiya, genetik psixologiya, koqnitiv psixologiya məktəblərinin yaranmasını vurğulayırlar. Maraqlıdır və təqdiredicidir ki, müəlliflər Azərbaycan psixologiyasının inkişafına bu fəsildə xüsusi yer ayırmışlar. Azərbaycan psixologiyasının işıqlı səhifələri çoxdur. Müəlliflər bu səhifələri yazanların hər biri haqqında dərin hörmətlə məlumat verir və psixologiyanın bugünkü inkişafında rol oynayan alimlərin fəaliyyətinə diqqəti cəlb edirlər. Bu fəsildə müəlliflər psixologiyanın metod və metodologiyası, psixikanın təkamülü, şüur və şüursuzluq məsələlərinin izahına da geniş yer vermişlər.

Uzun illər təlim konsepsiyaları hafizə yönümlü olub, müəllimlər pedaqoji yollarla bu vəzifəni həll ediblər. Biliyi yeni nəslə ötürmək üçün mücərrəddən konkretə yüksəlmə yolundan istifadə olunub. Müasir dövrdə biliyin mənimsənilməsində konkretdən mücərrədə yoluna üstünlük verilir. Birinci yol duyğular vasitəsi ilə qavranılan biliyin hafizədə qalmasına, ikinci yol qavranılan biliyin təfəkkür və təxəyyülün süzgəcindən keçdikdən sonra hafizədə qalmasına hesablanıb. Birinci yoldan istifadə olunduqda şagird yalnız bilik əldə edir, ikinci yoldan istifadə edildikdə şagird bilikdən istifadə etməyi - qarşısına çıxan problemi analiz-sintez edərək, vəziyyətdən çıxış yolunu, başqa sözlə desək, məsələni həll etmək iqtidarına malik olur. Bu, onunla bağlıdır ki, təlim prosesində ikinci yoldan istifadə edildikdə şagirdlərdə fikri əməliyyatlar inkişaf edir. Göründüyü kimi, müasir təlim konsepsiyaları psixologiyanın nailiyyətlərinə arxalanır. Məsələnin belə qoyuluşu hər bir müəllimin psixi proseslərin formalaşması və inkişafı mexanizmlərini bilməsini tələb edir. Dərslikdə bu istiqamətdə psixi proseslər - Duyğular (duyğuların təsnifatı, əsas növlərinin təsnifatı, əsas xassələri, duyğuların inkişafı), qavrayışın (qavrayış haqqında ümumi anlayış, əsas xassələri, təsnifatı), diqqət (diqqətin psixoloji mahiyyəti, fizioloji əsası, növləri, əsas xüsusiyyətləri), hafizə (hafizənin növləri, hafizə prosesləri), təfəkkür (təfəkkür haqqında ümumi anlayış, onun keyfiyyət xarakteristikası, əsas növləri, formaları, fikri əməliyyatlar), təxəyyül (təxəyyül haqqında anlayış, fizioloji əsasları, növləri, təxəyyülün inkişafı), emosiya və motivasiya (emosiya anlayışı, emosiyaların strukturu, funksiyaları, təsnifatı, xarakteristikası, hisslərin təsnifatı və xarakteristikası, motiv anlayışının tərifi, strukturu və funksiyaları, təsnifatı) psixologiyası haqqında geniş məlumat verilir. Düşünürük ki, bu məlumatlar gələcək müəllimlərin öz dərslərində psixi prosesləri inkişaf etdirmək üçün yetərlidir və onlar bu biliklərə əsaslanaraq öz dərslərini müasir dövrün tələbləri səviyyəsində qura bilərlər.

İnsan həm bioloji varlıqdır, həm sosial varlıq. Bioloji varlıq kimi onun keyfiyyətləri fərd, sosial varlıq kimi şəxsiyyət termini ilə ifadə edilir. İnsanın fərddən şəxsiyyətə çevrilməsi mürəkkəb və ziddiyyətli prosesdir. İnsanlar bu prosesi məktəbdə yaşayırlar, onlar şəxsiyyət kimi məktəbdə “doğulurlar”. Psixoloji problemləri bilməyən və ya ona biganə qalan və ya onu tətbiq etməyi lazım bilməyən müəllimlər məhz bu dövrdə insanın yaşadığı hiss və həyacanları başa düşmürlər. Təbii ki, belə münasibətin əziyyətini şagird çəkir. Bu istiqamətdə şəxsiyyət məsələlərinin gələcək müəllimlərə öyrədilməsi mühüm əhəmiyyət kəsb edir.

Müəlliflər qeyd edirlər ki, şəxsiyyət probləmə dair nəzəriyyələrdə vahid yanaşma yoxdur. Onlar şəxsiyyət haqqında məşhur alimlərin (E.Erikson, D.O.Mid, A.Bandura, Q.V.Olport, A.V.Petrovski, M.Q.Yaroşevski) fikirlərini açıqlayır, problemi müxtəlif aspektlərdən təhlil edərək, ümumiləşdirmə aparır və məntiqi nəticə çıxararaq, öz fikirlərini ortaya qoyurlar. Dərsliyin yazılmasında bu meyl xüsusilə vacibdir. Oxucu müxtəlif yanaşmaların əhatəsində qalmamalıdır, onlara düz yolun istiqaməti göstərilməlidir ki, müəlliflər bu çətin məsələnin öhdəsindən uğurla gəlmişlər.

Şəxsiyyət problemi çoxşaxəlidir. Onun hər bir məsələsi haqqında müxtəlif fikirlər səslənir. Müəlliflər dərslikdə bunu nəzərə ala bilmişlər. Məsələn, şəxsiyyətin inkişafına təsir edən amilləri açıqlayan müəlliflər diqqəti müxtəlif yanaşmalara cəlb edirlər. Sonda isə haqlı olaraq, bioloji və sosial amilləri, eləcə də insanın şəxsi fəallığını əsas götürən nəzəriyyəni təqdir edirlər. Bu bölmədə müəlliflər oxucunu şəxsiyyətin strukturu, qrup və şəxsiyyətlərarası münasibətlər ilə tanış edirlər. XX əsrdə müxtəlif şəxsiyyət nəzəriyyələri - şəxsiyyətə psixoanalitik yanaşma (Z.Freyd), şəxsiyyətə koqnitiv yanaşma (D.Miller, U.Naysser), şəxsiyyətə intersioksionist yanaşma (C.Mid, Ç.Kuli və b.), şəxsiyyətə humanist yanaşma (E.Erikson, A.Maslou, K.Rocers, Q.Merfi, Q.Olport) yaranmışdır. Müəlliflər bu nəzəriyyələr haqqında lazımi məlumatları vermişlər. Maraqlıdır ki, bu bölmədə müəlliflər şəxsiyyətin inkişafının yaş xüsusiyyətlərini açmış, bununla da müəllim üçün son dərəcə vacib olan şəxsiyyət problemi haqqında tam məlumat verə bilmişlər.

Şəxsiyyətin formalaşmasında fəaliyyət və ünsiyyət xüsusi önəm kəsb edir. Bu istiqamətdə müəlliflərin “Fəaliyyət və ünsiyyət” probleminə xüsusi fəsil ayırmalarını təqdir etmək lazımdır. Adından da bəlli olduğu kimi, bu fəsil iki hissədən ibarətdir. Birinci hissə fəaliyyət probleminə həsr olunmuşdur. Burada onlar fəaliyyət və onun ümumi strukturu, növləri, iradi tənzimi, iradi keyfiyyətləri açıqlayırlar. İkinci hissədə ünsiyyət psixologiyası (ünsiyyət psixologiyasının mövzusu, strukturu, funksiyaları, ünsiyyət pozuntuları, çətinlikləri, maneələri) məsələləri açıqlanır.

Şəxsiyyətin fərdi psixoloji xüsusiyyətləri adlı beşinci fəsil üç hissədən ibarətdir. Müəlliflər əvvəlcə temperament və onun tiplərinə diqqəti cəlb edirlər. Hələ qədim dövrdən insanların bir-birindən fərqləndiyi müşahidə edilmişdi. İnsanlarda mövcud olan bu fərdi xüsusiyyətlər temperament termini ilə ifadə edilmişdi. Müəlliflər bu hissədə temperament haqqında müxtəlif təlimlərin fonunda temperament tiplərini açıqlamışlar. İkinci hissə xarakter və onun aksentuasiyası probleminə həsr olunmuşdu. Bu hissədə xarakterin tərifi, onun formalaşmasına təsir edən amillər, xarakter əlamətlərinin təsnifatı, xarakterin norma, aksentuasiyası və patologiyası açıqlanmışdır. Üçüncü hissə qabiliyyətlərin psixologiyasına həsr olunmuşdu. Məktəbdə şagirdlərin qabiliyyətlərinin öyrənilməsi və inkişafı önəmli pedaqoji vəzifələrdən biridir. Son illərdə tətbiq edilən inkişafetdirici təlim konsepsiyaları qabiliyyətlərin öyrənilməsi məsələsini daha da aktuallaşdırmışdı. Qabiliyyətlərin öyrənilməsinə, ilk dəfə, A.Binenin hazırladığı testlər vasitəsi ilə başlansa da, bu məsələ sonralar F.Halton tərəfindən inkişaf etdirilmişdi. Müəlliflər qabiliyyətlər probleminin aktuallığını nəzərə alaraq, bu fəsildə qabiliyyətlərin kəmiyyət və keyfiyyət xarakteristikasını, qabiliyyətlərin quruluşunu açıqlamış, təbii imkanlar və qabiliyyət, qabiliyyət və istedad, şagirdlərdə qabiliyyətlərin və yaradıcı imkanların formalaşması məsələlərinə xüsusi diqqət yetirmişlər.

Müəllimlər üçün olan bu dərs vəsaitində pedaqoji psixologiya bölməsinin verilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, psixoloji tədqiqatların nəticələrinin məktəbə tətbiqi pedaqoji psixologiya vasitəsi ilə həyata keçirilir. Müəlliflər dərs vəsaitində müəllim hazırlığı üçün son dərəcə vacib olan pedaqoji psixologiya bölməsinə xüsusi fəsil ayırmışlar. Onların bu təşəbbüsünü alqışlayırıq.

Mahiyyəti etibarı ilə bu hissə iki istiqamət ilə əlamətdardır. Birinci istiqamət təlimin və tərbiyənin psixoloji əsaslarını özündə ehtiva edir. Hər bir müəllim həm də tərbiyəçidir. Onlar təlimin və tərbiyənin psixoloji əsaslarını bilməlidirlər.

Təlimin psixoloji əsasları bölməsində təlim sosial-psixoloji, ünsiyyət və yaradıcılıq prosesi kimi mənalandırılır. Bu məzmundan çıxış edərək, müəlliflər təlim nəzəriyyələrini, təlimin prinsiplərini, təlimin psixoloji qanunauyğunluqlarını açıqlayır, şagirdin təşəkkülündə və yaradıcılığının inkişafında fəal təlim metodlarının, təlimdə fərdi və diferensial yanaşmanın rolunu göstərirlər. Fəal təlim metodları Pedaqogika və Fənlərin tədrisi metodikası fənninin tədrisində tələbələrə öyrədilir. Görəsən, Psixologiya dərsliyində bu məsələyə yer ayrılmasının səbəbi nədir? Məsələ burasındadır ki, bu metodların tətbiqinin psixoloji əsasları var, onları bilmədən müəllim bu metodların tətbiqində uğurlu nəticə əldə edə bilməz. Zənnimizcə, müəlliflər öz məqsədlərinə nail olmuşlar. Bu biliklər təlim prosesinin daha səmərəli təşkilində, şagirdin təfəkkürünün, təxəyyülünün inkişafında, qabiliyyətini üzə çıxarıb,onun düzgün istiqamətlənməsində mühüm rol oynayır.

Tərbiyə prosesi müasir dövrdə monoloji mədəniyyətin dialoji mədəniyyətlə əvəz edilməsi ilə yeni məzmun kəsb etmişdi. Bu müəllim-şagird münasibətlərinin yeni müstəviyə keçməsi deməkdir. Müəlliflər problemə bu istiqamətdən yanaşaraq, tərbiyənin əsas funksiyalarını, ümumi və xüsusi məqsədlərini, vəzifələrini açıqlamışlar. Maraqlı məqam ondan ibarətdir ki, onlar bu bölmədə tərbiyəvi təsir, tərbiyəvi nüfuz və qarşılıqlı təsir, onun tipləri, metodları məsələlərinin mahiyyətini izah etmişlər.

Fəslin ikinci istiqaməti pedaqoji fəaliyyətin və müəllim şəxsiyyətinin psixologiyasının açıqlanmasına həsr olunmuşdur. Keçən əsrin 60-70-ci illərinə qədər müəllim pedaqoji prosesin subyekti, şagird isə obyekti kimi qiymətləndirilirdi. Tərbiyə məsələlərində yaranan dəyişikliklər nəticəsində müasir dövrdə şagird də müəllim kimi pedaqoji prosesin subyekti kimi qiymətləndirilir. Məsələyə bu kontekstdən yanaşan müəlliflər pedaqoji fəaliyyətin psixoloji səciyyəsini, funksiyalarını, strukturunu, motivlərini, üslublarını, pedaqoqun peşəkarlıq anlayışını və onun peşəkar komponemtliyini psixoloji tədqiqatlara əsaslanaraq açıqlamışlar. Müəlliflər pedaqoji proses, pedaqoji fəaliyyət və pedaqoqun peşəkarlığı məsələlərini yeni məzmunda təqdim edə bilmişlər.

Artıq bir müddətdir ölkəmizdə inklüziv təhsil həyata keçirilir. Təbii ki, bu istiqamətdə bizim təcrübəmiz yox idi, buna görə ilk vaxtlarda xarici ölkə təcrübələrindən istifadə edildi. İndi, az da olsa, inklüziv təhsil sahəsində təcrübə toplanıb, müəyyən uğurlar əldə edilib. Tədricən müəyyən tədqiqatlar da həyata keçirilir. Ali məktəblərdə də müəllim hazırlığı ixtisasları üzrə kadr hazırlayan fakültələrdə inklüziv təhsil ilə bağlı xüsusi kurslar tədris edilir. Bu kurslar gələcək müəllimlər üçün olduqca böyük pedaqoji əhəmiyyət kəsb edir. Təqdirəlayiqdir ki, Psixologiya dərs vəsaitində bu məsələ diqqətdən kənar qalmamışdı.“İnklüziv təhsilin nəzəri-psixoloji məsələləri” adlı fəslin ayırd edilməsi müəlliflərin uğuru kimi qiymətləndirilməlidir. Düşünürük ki, dərs vəsaitində bu problemə yer ayrılması hazırlanan müəllim kadrlarının gələcək uğurlarını daha da artıracaq, ölkəmizdə inklüziv təhsil istiqamətində daha keyfiyyətli təcrübənin əldə olunmasına şərait yaradacaqdır. “İnklüziv təhsilin nəzəri-psixoloji məsələləri” fəslində müəlliflər inklüziv təhsilin məqsəd və vəzifələrini, inklüziv təhsilin komponentləri və prinsiplərini açıqlayırlar. Maraqlıdır ki, bu fəsildə xüsusi qayğıya ehtiyacı olan uşaqların psixoloji xüsusiyyətləri, onların aktual və yaxın inkişaf zonaları, müxtəlif xüsusiyyətləri, bu uşaqların təlim və tərbiyəsinin təşkili məsələləri müasir məktəbin aktual problemi kimi dəyərləndirilir.

Müasir dövrdə müəllimin portret cizgiləri dəyişib, bu gün müəllim, ilk növbədə, psixoloq olmalıdır. Bu gün istedad əsridir, onu sinifdə müəllim yetişdirməlidir. İstedadsız şagird yoxdur, istedadı üzə çıxmayan şagird var. Müəllim fənni pedaqoji yollarla tədris edəndə istedadı üzə çıxara bilmir, fənni psixologiyanın nailiyyətlərinə əsasən quranda istedadı üzə çıxara bilir.

Psixoloqlar istedadın öz stixiyasını şəxsiyyət məkanında göstərdiyini müəyyən etmişlər. Məsələnin belə qoyuluşu şagirdlərdə şəxsiyyət keyfiyyətlərinin formalaşmasını tələb edir. Müəllim pedaqoji biliklərlə şagirdi yalnız tərbiyə edə bilir, şəxsiyyət keyfiyyətlərinin formalaşması və inkişaf etdirilməsi müəllimdən psixoloji biliklər tələb edir.

Düşünürük ki, təqdim etdiyimiz dərs vəsaiti müasir müəllimin yetişdirilməsinə hesablanıb. Dərs vəsaitində müasir müəllim üçün zəruri olan psixoloji biliklər son dərəcə maraqlı və məzmunlu şəkildə şərh edilib. Müəlliflər müəllim olmaq istəyən hər bir kəs üçün son dərəcə dəyərli olan dərs vəsaiti hazırlamağa nail olmuşlar. Buna görə onları yalnız təbrik etmək lazımdır.

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru*

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**Kafedralar üzrə boş olan vəzifələr**

| | | |
|---|---|---|
| 1. Ekologiya və təbiəti mühafizə | - kafedra müdiri | - 1 yer |
| 2. Fransız dili | - kafedra müdiri | - 1 yer |
| 3. Anatomiya, fiziologiya və zoologiya | - kafedra müdiri | - 1 yer; |
| | - müəllim | - 1 yer |
| 4. Fiziki tərbiyə və GÇH | - kafedra müdiri | - 1 yer |
| 5. İqtisadiyyat | - dosent | - 2 yer; |
| | - müəllim | - 4 yer |
| 6. İdarəetmə | - müəllim | - 3 yer |
| 7. Menecment və turizm işi | - dosent | - 1 yer; |
| | - müəllim | - 1 yer |
| 8. Təhsilin pedaqogikası və metodikası | - müəllim | - 1 yer |
| 9. Fizika | - müəllim | - 4 yer |
| 10. İnformatika | - müəllim | - 1 yer |
| 11. Ümumi tarix | - müəllim | - 1 yer |
| 12. Sosial fənlər | - müəllim | - 4 yer |
| 13. Botanika | - müəllim | - 2 yer |
| 14. Təsviri incəsənət | - müəllim | - 1 yer |
| 15. Musiqi fənləri | - müəllim | - 1 yer |
| 16. Ümumi pedaqogika | - müəllim | - 2 yer |
| 17. Azərbaycan dili | - müəllim | - 2 yer |
| 18. Alman dili | - müəllim | - 2 yer |
| 19. Rus dili | - müəllim | - 2 yer |
| 20. Həndəsə və cəbr | - müəllim | - 1 yer |
| 21. Qrammatika və ingilis dilinin tədrisi | - müəllim | - 1 yer |

*Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.11.2017-ci il tarixli 5/5 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.*

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 266-70-33; (022) 266-01-89

**REKTORLUQ**


# Etibarsız sayılır

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2006-cı ildə Əliyeva Qafilə Hidayət qızına verilmiş BB-II-038167 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılova (Ağakişiyeva) Bənövşə Rəsul qızına verilmiş B-509095 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həsənova Aidə Bəxtiyar qızına verilmiş A-236550 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** A.Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-liseyi 2007-ci ildə bitirmiş Fətəliyeva Gülnar Şamil qızına verilmiş B-436451 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADA Universiteti** tərəfindən 2017-ci ildə Davudova Sədaqət Rəhim qızına verilmiş AM-015157 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Kəlvəz kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədova (Orucova) Susana Əmiraslan qızına verilmiş A-578177 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən Dəniz Mətləb oğlu Aslana verilmiş A-147133 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən Dəniz Mətləb oğlu Aslana verilmiş 001098 nömrəli taqım komandiri sertifikatı itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdindəki İnşaat Kolleci** tərəfindən 2010-cu ildə Mahmudov Mahmud Əlihüseyn oğluna verilmiş BB-II-113036 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Mahmudova Dərya Cavanşir qızına verilmiş A-046498 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lerik rayonu** Mistan kənd ümumi orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qənbərova Mehriban Əhmədağa qızına verilmiş A-347077 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Ə.Tahirov adına Köhnə Xaçmaz tam orta məktəbi 2010-cu ildə bitirmiş Xalidov Ceyhun Yaşar oğluna verilmiş B-740051 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Bağırlı Ülvi İntizami oğluna verilmiş B-749605 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xırdalan şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Yusubova Xanım İsmixan qızına verilmiş A-083344 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** R.Orucova adına 109 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Əliyev Ramin Fərman oğluna verilmiş A-443171 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düyərli 1 nömrəli kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Məhərrəmova Gülnar Telman qızına verilmiş A-072911 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Vəliyeva Rəqsanə Məzahir qızına verilmiş B-178344 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Z.Abbasov adına Dəllər qəsəbə tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Həsənov Şöhrət Sərdar oğluna verilmiş 235 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 14 nömrəli tam orta məktəbi 2020-ci ildə ekstern qaydada bitirmiş Alakan Muhammed Uğur Resul oğluna verilmiş E-306433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7969 **Sifariş** 2294

**Məsul növbətçi:** O.Mustafayev


**Bakı şəhər** N.Nərimanov adına 248 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Nijeqorodtseva Natalya Vladimirovnaya verilmiş A-192047 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Y.Yusifov adına 265 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Abdullayeva Dilşad Hüseyn qızına verilmiş B-019072 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Ayvaz Afra Zafer qızına verilmiş A-001708 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Salmanlı Tural Şərif oğluna verilmiş E-196974 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düyərli kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Nərminə Rizvan qızına verilmiş A-075943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** A.Rəhimov adına 247 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Mehdiyev Rufat Hacı oğluna verilmiş A-025142 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Sədri Musəvi Mir Rauf Mir Hacı oğluna verilmiş AN-104991 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Sədri Musəvi Leyla Mir Hacı qızına verilmiş B-160653 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** A.Vəliyev adına 258 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədova Səkinə Aydın qızına verilmiş E-271703 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Cahangir Cahangirov adına 4 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədova Səkinə Aydın qızına verilmiş A-979387 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Verdiyev Orxan Mahir oğluna verilmiş A-822369 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Verdiyev Sərxan Mahir oğluna verilmiş A-822370 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Firdus və Lətifə Əhmədovlar Bakı şəhəri 109 nömrəli tam orta məktəbin direktoru Gülnarə Bədəlovaya atası

**MƏSTALI BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi, müəllim və şagird kollektivi liseyin X sinif şagirdi

**GÜLARƏ NAĞIYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin müəllimi Sevda Abdullayevaya əzizi

**MİNAYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dünya təcrübəsi

# ABŞ-da STEAM




**STEAM tədris metodikası bu gün bütün dünyada ən müasir, perspektivli və trend təhsil kimi tanınır. Əgər sənaye dövrünün savadlılıq göstəricilərini oxu, yazma, riyazi bacarıqlar təşkil edirdisə, XXI əsrin bacarıqlarına kritik düşünmə, əməkdaşlıq və kommunikasiya, işə yaradıcı yanaşma kimi xüsusiyyətlər aiddir. Beləcə, gələcəyin kommunikasiya, kooperasiya (əməkdaşlıq), kritik düşünmə, kreativlik kimi 4K əsas bacarıqları formalaşıb.**

**Gələcəyin ən uğurlu peşəkar mütəxəssisinə çevrilməyin yolu STEAM-dan keçir**



## STEAM-ın tarixi

İlk dəfə Amerika Birləşmiş Ştatlarında qəbul edilən STEM/STEAM təhsil konsepsiyası özünəməxsus tarixə malikdir. Belə ki, hələ 1957-ci ildə SSRİ tərəfindən ilk müstəqil süni peyk olan “Sputnik-1” orbitə buraxıldıqdan sonra ABŞ-da sürətlə tətbiqi, fundamental elmlərin inkişafı üzrə layihələrə start verildi. Amerikada həmin dövrdə dəqiq elmlərin inkişafı üzrə görülən işləri “sputnik effekti” də adlandırırdılar.

Hələ 1990-cı ildə amerikalı bakterioloq Rita Rossi Kolvell tərəfindən STEM abreviaturası irəli sürülsə də, 2001-ci ildə ABŞ Milli Elmi Fondu (USNational Science Foundation) ali məktəblərdə müasir mühəndis alimləri və tədqiqatçılar hazırlamaq məqsədilə STEM (science-elm, technology-texnologiya, engineering-mühəndislik, math-riyaziyyat) konsepsiyasını qəbul edir. Bu ideya dövlət, ictimai təşkilat və korporasiyalar, “Intel” və “Xerox” kimi texnoloji liderlər tərəfindən dəstəklənir.

2006-cı ildə ABŞ Milli Elmlər Akademiyası ölkədə STEM təhsilin vəziyyəti ilə bağlı narahatlığını bildirir və Akademiyanın Elm, Mühəndislik və İctimai Siyasət üzrə Komissiyası STEM təhsilin XXI əsrin tələblərinə uyğun gələn 10 əhəmiyyətli tədbir siyahısını hazırlayır. Onlardan 3 əsas tövsiyyə olunanlar: 1) ABŞ-ın istedadlı uşaq və yeniyetmələrinin K-12 formatında (uşaq bağçasından 12-ci sinfədək, yəni məktəbəqədər və məktəb dövründə) elmi-riyazi təhsil səviyyəsinin stimullaşdırılması; 2) müəllimlərin riyazi və texniki elmlər üzrə yenidən hazırlanması və ixtisasartırma; 3) STEM ixtisasların alınması üçün ali məktəb və kolleclərə dəqiq fənlər üzrə hazırlanmış abituriyent axınının gücləndirilməsi.

Nəticədə 2006-cı ildə ABŞ prezidenti Corc Buş dəqiq-texniki təhsilin gücləndirilməsi üçün “Amerikanın rəqabətlilik məqsədləri” (American Competitiveness Goals) proqramını elan edir. Bu proqram ölkənin innovasiya gücünün inkişafını təmin etmək məqsədilə hazırlanmışdı. Proqramın əsas məqsədləri arasında aşağıdakılar qeyd olunurdu:

a) Ölkənin elmi-texniki potensialının yaxşılaşdırılması və riyazi elmlərin tədrisi üzrə proqramların hazırlanması üçün 33 qrant ayrılsın;
b) İnnovativ istehsal məqsədilə 10 mindən çox alim, tələbə, magistr, elmlər doktoru, texniki mütəxəssis hazırlansın;
c) 2015-ci ilədək dəqiq elmlər və riyaziyyat üzrə yüksək ixtisaslaşmış 100 min müəllim hazırlansın;
d) XXI əsrin tələblərinə uyğun 800 min mütəxəssis hazırlansın.

2008-2009-cu illər ABŞ-da baş vermiş iqtisadi böhran ölkə əhalisinin aşağı təhsilli hissəsinə daha çox təsir edir. İstehsalın avtomatlaşdırılması, robotlaşması, rəqəmsallaşması zamanı iş ixtisarları aşağı təhsilə malik işçiləri əhatə edir. Əmək bazarında yaranmış problemlərə, mühəndis və proqramçı çatışmazlığına cavab olaraq ABŞ prezidenti Barak Obama təhsil sahəsində islahatların vacibliyini önə çəkir. Həmin dövrdə ABŞ pedaqoqları müxtəlif ölkələrin, xüsusilə Asiya təhsil sistemini öyrənərkən bir ümumi nəticəyə gəlir ki, incəsənətlə dəqiq elmlərin bir arada tədrisi əsas istiqamətin öyrədilməsində daha müsbət nəticələrə gətirir, kommunikasiya, sosiallaşma və tələbələrin özünü ifadə etməsinə müsbət təsir göstərir, müşahidə etmək bacarığı, qabiliyyətlərini inkişaf etdirir. 2009-cu ildə Con Hopkins Universitetinin nevroloji tədqiqatları göstərir ki, incəsənət (Art) tələbələrdə öyrənmə bacarıqlarını möhkəmləndirir, dərs zamanı yaddaş və diqqətin cəmlənməsinə səbəb olur.

Beləcə, STEM abreviaturasına A (Art-incəsənət və onun növləri: humanitar elmlər, xarici dillər, yeni media, rəqs, teatr, musiqi və s.) hərfi əlavə edilməklə ayrı ayrılıqda fənlər öyrətməyən, fənləri bir-birilə əlaqəli şəkildə kompleks təqdim edən STEAM müasir təhsil fenomeni meydana gəlir. ABŞ pedaqoqları yeni tədris yanaşması düşünüb işləyir və həmin yanaşmanın əsas məqsədləri aşağıdaklar olur: 1) qızları və STEM təhsildə azlıq təşkil edən elmi işçiləri STEAM-a cəlb etmək; 2) bütün öyrənənləri STEAM təhsilə dəvət etmək və həmin sahə üzrə karyerasını davam etdirməsini təmin etmək; 3) dövlət tərəfindən texniki və maddi dəstək göstərərək vahid proqram hazırlamaq; 4) tələbələri öyrədə biləcək müəllimlər yetişdirmək; 5) STEAM təhsili yönümlü yeni məktəblər inşa etmək.

## STEAM məktəbəqədər təhsil müəssisələrində

ABŞ-da STEAM təhsili məktəbəqədər təhsil müəssisələrindən başlayır və karyeranın bitdiyi dövrə qədər davam edir. Erkən yaşlardan STEAM təhsilin inkişaf etdirilməsi bu ölkədə rəqabət qabiliyyətinin əsas şərti kimi qəbul olunur. ABŞ hökuməti tərəfindən valideynlər və məktəbəqədər təhsil müəssisələri üçün “Gəlin STEAM haqqında danışaq, oxuyaq və nəğmə deyək!” (Let’s Talk, Read, and Sing about STEAM!) tədris resursları bazası, öyrədici teleproqramlar, videooyunlar hazırlanıb, ABŞ-ın onlarla şəhərində pulsuz yay düşərgələri təşkil olunub. Eyni zamanda uşaqları elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatla tanış etmək məqsədilə “STEAM-a yolunuzu təkrar emal edin” (Recycle Yor Way to STEAM) adlı proqrama daxil olmaq imkanları genişləndirilir, müəllim və bağça tərbiyəçilərinin STEAM təhsil standartlarının artırılması üçün treninqlər keçirilir. STEAM təhsilin aktivləşməsi təhsilin kütləviləşməsi, iqtisadi imkanların artımı, bir çox təhsil problemlərinin həlli, yüksək ixtisaslaşmış müəllimlərin sayının artırılması, effektiv tədris proqramlarının yaranmasına səbəb olur.




ABŞ-ın uşaq bağçalarında körpələrdə analitik düşünmə, hadisələrin analizi və nəticəni əvvəlcədən görmək bacarıqları inkişaf etdirilir, əyləncəli oyunlar və təcrübələr vasitəsilə dəqiq elmlərə maraq oyadılır. STEAM təhsil uşaq beyninin hər iki kürəsinin çalışmağına səbəb olur, uşaqlarda özünə dəyər vermə və özünə inam hisslərinin baş qaldırmasına kömək edir. Uşaqlar həyatın müxtəlif sferaları arasında əlaqəni görür və bu, onlara təhlükəsizlik, baş verənlərin rasionallığını duymaq hissləri bəxş edir.

## STEAM məktəblərdə

ABŞ məktəblərinin ibtidai siniflərində şagirdlər STEAM sahələrini daha dərindən öyrənməyə başlayır, bu sahələrin insanın gündəlik həyatı ilə bağlılığı elmi metodlar və tapşırıqları həll etmək yolu ilə izah edilir. Şagirdlər həm fərdi, həm də komanda şəklində müəyyən bir layihənin uğurla reallaşmasında iştirak edir, mütəmadi olaraq tətbiqi məsələlər həll edir, uğurlu həll yolu tapdıqda uşaqlarda özgüvən hissi möhkəmlənir. Ortaya çıxan səhvləri araşdırmağı və təcrübələri təkrar qoymağı, səhvlərdən nəticə çıxarmağı öyrənirlər. Onlar baş verən hadisələrin insanla bağlılığını görür, insanın dünyanı dəyişdirdiyini hiss edir, gələcəyi yaxşılığa doğru dəyişdirməyin onların əlində olduğuna inam hissi yaradır. Yuxarı siniflərə keçdikcə təcrübə və tapşırıqların həlli çətinləşir, onların həll edilməsi daha böyük vaxt tələb edir. Dərslər təcrübə və layihənin nəticəsi ilə bağlı hesabat və ya təqdimatla yekunlaşır. Əksər fənlərin tədrisi adətən vizual (oxu mətnləri, təsvir), audio formatında, kinestatik (toxunaraq öyrənmə), sosial öyrənmə və s. vasitələrlə ötürülür.

ABŞ məktəblərində “Dahiyanə saat”, “Vaxtın 20%-i” kimi layihələr həyata keçirilir. Müəyyən vaxt ərzində şagirdlər hər hansı bir problem üzərində düşünürlər.

ABŞ məktəbləri və unversitetləri STEAM sahəsi üzrə müxtəlif əməkdaşlıq metodları təklif edir. Məktəb İdarəetmə Assosiasiyaları bu əməkdaşlıqda aktiv iştirak edir, konfranslar keçirirlər. Konfranslarda təhsil proqramlarının bir neçə dildə dizaynı və reallaşdırılması, akademik nailiyyətlər və elmi uğurlar proqramlarının inkişafı kimi aktual STEAM məsələləri müzakirə olunur.

## STEAM ali təhsildə

Bu gün ABŞ ali təhsil sistemində STEM/STEAM konsepsiyasına uyğun yüzlərlə ixtisas və proqramlar tədris edilir və bu ixtisasların sayı ilbəil artmaqdadır. Ali məktəblərdə təbii-elmi, mühəndislik sahələrilə yanaşı humanitar və yaradıcı fənlər: ədəbiyyat, dizayn, memarlıq, musiqi, təsviri incəsənət öyrədilir. STEM fənləri tətbiqi məsələlərin aydın həllində, Art sahələr isə qeyri-müəyyənlikdə, birmənalı olmayan şəraitlərdən çıxış yolu tapmaqda oyrənənlərə komək edir. Beləcə, tələbələr işlərində elmi dəqiqliyi və yaradıcı azadlığı ahəng şəkildə tətbiq etməyi öyrənirlər.Tələbələrin diplom işləri müxtəlif texnoloji şirkətlərdə təcrübə və əsl mütəxəssislərlə çiyin çiyinə çətin texnoloji layihələrdə iştirakla birləşdirilib. Bunun nəticəsində texnologiya şirkətləri universiteti bitirdikdən sonra dərhal ixtisaslaşmış mütəxəssis əldə edə bilirlər.

ABŞ-da STEAM ixtisaslara qəbul olmaq üçün əcnəbi abituriyentlər imtahan verməli, müsahibədə iştirak etməli, esse yazmalı və s. mərhələlərdən keçməlidirlər. Bütün prosedurlardan keçmə müddəti bir neçə ayı, bəzən isə ili əhatə edir, çünki qəbul imtahanlarından uğurlu nəticə əldə etmək üçün hazırlıq kursları keçmək, akademik biliklərdə mövcud boşluqları doldurmaq lazım gəlir.

STEM/STEAM təhsil istiqməti əcnəbi tələbələrin ən çox seçdiyi sahədir. Bu istiqamət dövlət və qeyri-dövlət təşkilatları tərəfindən dəstəklənir, bu istiqamətə çoxsaylı qrantlar, təqaüdlər ayrılır, tələbə fondları yaradılır. STEAM sahələri üzrə təhsil almış məzunlar həm ABŞ-da, həm də dünyanın digər ölkələrində daha tez iş tapır, yüksək karyera əldə edirlər. STEAM istiqaməti üzrə ABŞ-da təcrübə keçən əcnəbi mütəxəssislər tez bir zamanda işlə təmin olunur, vizasını dəyişərək bu ölkədə qalmaq imkanı qazanır.

Hazırda ABŞ Əmək Departamenti tərəfindən gücləndirilmiş STEAM hazırlığı tələb olunan onlarla əmək bazarı sektoru ayrılıb. Həmin sektorlara avtomobilqayırma, inşaat, maliyyə xidmətləri, milli təhlükəsizlik, nəqliyyat, aerokosmik sahə, biotexnologiyalar, mehmanxana işi, pərakəndə ticarət, qabaqcıl sənaye texnologiyaları, energetika, səhiyyə, informasiya texnologiyaları və s. daxildir.

ABŞ-da STEAM çərçivəsində fəaliyyət STEM Təhsil Koalisiyası (STEM Education Coalition) tərəfindən koordinə edilir. Koalisiyaya minlərlə təşkilat, təhsil mütəxəssisi, alim, mühəndis, texniki işçi daxildir. Bu təşkilatın üzvləri təhsil prosesinin bütün mərhələlərinin keyfiyyətli STEAM təhsillə təmin edilməsini qarşılarında məqsəd qoyublar.

NACA (National Advisory Committee for Aeronautics - Aeronavtika üzrə Məsləhət Komitəsi) həmçinin XXI əsrdə kosmosun mənimsənilməsi üçün alimlər, mühəndis və riyaziyyatçıların hazırlanması məqsədilə STEAM təhsilin inkişafına bir sıra proqramlar daxil edib. Bu proqramlardan biri “STEAM Yer Elmləri Təkmilləşdirilməsi” (STEAM Enhancement in Earth Science) yay təcrübəsidir. Proqram ABŞ məktəblərinin yuxarı sinif şagirdləri üçün nəzərdə tutulub.

STEAM təhsil tələbələrin öyrədilməsində və gələcək mütəxəssislərin hazırlanmasında tamamilə yeni yanaşma təqdim edir. STEAM mütəxəssisi dar bir sahənin bilicisi deyil, müxtəlif layihə işlərində öz biliklərini uğurla tətbiq edə biləcək peşəkardır. Gələcəyin ən uğurlu peşəkar mütəxəssisinə çevrilmək və sərhədsiz imkanlara malik olmaq istəyən hər kəs yolunu STEAM təhsildən başlamalıdır.

**Lamiyə ƏLİMƏRDANOVA**